


Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

13 fevral 2020-ci il
Cümə axşamı

№ 6 (3471)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


***Fevralın 6-da Azərbaycan Prezidenti İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Fevralın 6-da dövlətimizin başçısı Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi-Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı İlham Əliyev fevralın 6-da Rusiya Federasiyasının TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana "Şərəf" ordenini təqdim edib.***

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da Əmək pensiyalarının indeksləşdirilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri fevralın 6-da Vanda baş vermiş qar uçqunu nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana başsağlığı teleqramı göndərib.***

***Dövlətimizin başçısı fevralın 7-də milli bayram – İslam İnqilabının Qələbəsi Günü münasibətilə İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Ruhaniyə təbrik məktubu göndərib.***

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 10-da Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Ölkəmizin rəhbəri fevralın 10-da MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminskini qəbul edib.***

***Dövlətimizin başçısı fevralın 11-də 2020-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında sərəncam imzalayıb.***

## PREZİDENT İLHAM ƏLİYEV XALQ ARTİSTİ ƏLİBABA MƏMMƏDOVA "ŞƏRƏF" ORDENİNİ TƏQDİM EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 11-də Heydər Əliyev Mərkəzində musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovla görüşüblər.

Dövlətimizin başçısı Xalq artisti Əlibaba Məmmədovu 90 illik yubileyi münasibətilə təbrik edərək "Şərəf" ordenini ona təqdim edib.

Həmin gün Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Mərkəzində təşkil edilən "Tarixin şah əsərləri" adlı sərgi ilə tanış olublar.

Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil edilmiş "Live Life" sərgisi ilə tanışlıq olub.

Dövlətimizin başçısına və birinci xanıma sərginin məqsədi barədə məlumat verilib.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Musiqi alətləri: birlik və müxtəliflik" adlı sərgi ilə tanış olublar.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERİB

Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilib.

Səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində canlanma müşahidə olunub.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs vermək üçün bu seçki məntəqəsinə gəliblər.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçib və sonra bülleteni qutuya salıb.

Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izləyiblər.

Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs veriblər.

Qeyd edək ki, Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində 574 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 20 namizəd mübarizə aparıb.

***Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç, Gürcüstanın Baş Naziri Giorgi Qaxaria Yeni Azərbaycan Partiyasının parlament seçkilərində qalib gəlməsi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevi təbrik ediblər.***

## PREZİDENT İLHAM ƏLİYEVİN KÜRDƏMİR RAYONUNA SƏFƏRİ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə Kürdəmir şəhərindəki Heydər Əliyev Parkında ümummilli liderin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib.

Prezident İlham Əliyev Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun, "ASAN xidmət" mərkəzinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Kürdəmir filialının açılışlarında iştirak edib.

Həmin gün Kürdəmir rayonunun Karrar qəsəbəsində "Qlobal Aqro" Məhdud Məsuliyyətli Cəmiyyətinin aqroparkının da təqdimatı olub.

***Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Pirallahı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Dübəndi" yarımstansiyasının açılışında iştirak edib.***

## VƏTƏNƏ, XALQA XİDMƏT EDƏN SİYASƏT

Dövlət daim öz vətəndaşına qayğı göstərir, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllinə prioritet vəzifə kimi yanaşır və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Xüsusilə də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunur, bu kateqoriyaya aid olan insanlara mənzillər, avtomobillər verilir, güzəştlər və müxtəlif kompensasiyalarla təmin edilirlər.

2019-cu ilin əvvəlindən başlayaraq dövlət başçısının imzaladığı fərman və sərəncamlar əsasında reallaşdırılan böyük sosial tədbirlər paketi bütün kateqoriyalardan olan vətəndaşların rifah halını daha da yüksəldib. Prezidentin 2 sosial paketi ümumilikdə 4,2 milyon nəfəri əhatə edib. İki sosial paket çərçivəsində reallaşan uğurlu göstəricilərə nəzər yetirdikdə bunu aydın şəkildə görə bilərik. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 72,4, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, yeni təqaüd növləri təsis edilib. Ümumən Prezidentin aylıq təqaüdləri ilə təminat proqramı 5 dəfəyə yaxın genişlənib. Hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında birinci yerdədir.

Bir sözlə, sosial sahə üzrə görülən işlər bir tərəfdən Azərbaycan dövlətinin gücünü, digər tərəfdən də Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin effektivliyini, reallaşdırılan islahatların yüksək praktiki nəticələr verdiyini göstərir.

Son 16 ildə orta aylıq əməkhaqqının 11 dəfə, orta aylıq pensiyanın 8 dəfə, həmçinin müavinət və təqaüdlərin dəfələrlə artırılması bunun əyani sübutudur.

Sosial sahədə atılan mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir.

## DAXİLİ İŞLƏR NAZİRİ SƏFİRLƏ GÖRÜŞDÜ



Fevralın 7-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Almaniya Federativ Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniqi qəbul edib.

Avropalı diplomatı yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edən nazir V.Eyvazov ona fəaliyyətində uğurlar arzulayıb.

Dostluq və işgüzar şəraitdə keçən görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilib.

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2020-ci il fevral ayının 29-da Şirvan şəhər Polis Şöbəsində Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2020-ci il fevral ayının 22-də Bərdə rayon Polis Şöbəsində Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# DİN-in MƏTBUAT XİDMƏTİNDƏN

2020-ci il fevral ayının 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər zamanı daxili işlər orqanları tərəfindən qanunla müəyyən olunmuş vəzifələrin icrası təmin edilmiş, təhlükəsizlik və hüquq qaydası etibarlı qorunmuşdur.

Saat 19:00-a olan müddətə ictimai asayişin kobud surətdə pozulması, seçki prosesinə polisin qanunsuz müdaxilə etməsi faktı qeydə alınmamışdır.

Polis, yalnız Seçki Məcəlləsi ilə nəzərdə tutulmuş halda – rəsmi dəvət əsasında seçki məntəqələrinə gəlib asayişi bərpa etmiş, qanunauyğun tədbirlər görmüşdür.

# ÇEVİK POLİSLƏR YENİ FORMADA



Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 8-də DİN-in Əlahiddə Çevik Polis Alayında müasir və rahat, həmçinin, daha keyfiyyətli materialdan olan yeni geyim formasının tətbiqi ilə əlaqədar Alayın şəxsi heyətinin sıra baxışını keçirib.

# CƏNUBİ QAFQAZIN LİDERİ AZƏRBAYCAN



"Global Firepower Index" 2020-ci il üzrə dövlətlərin hərbi güclərinə görə reytinq cədvəlini açıqlayıb. Reytinqdə 138 ölkə yer alıb. Siyahının hazırlanmasında 50 fərqli amil nəzərə alınıb. Azərbaycan siyahıda 63-cü yeri tutub. Reyting cədvəlində Gürcüstan 93-cü, Ermənistan 112-ci yerdə qərarlaşıb.

Siyahıda birinci yeri ABŞ, ikinci yeri Rusiya, üçüncü yeri isə Çin tutub. Türkiyə reytinqdə 13-cü, İran 14-cü pillədə qərarlaşıb. Sonuncu yerləri isə Bosniya və Hersoqovina, Liberiya və Butan tutub.

# GƏLƏCƏK LAYİHƏLƏRİN İSTİQAMƏTİ MÜƏYYƏNLƏŞİB

**Davamlı inkişaf və dərin islahatların möhtəşəm uğurları Azərbaycanı 20 ən islahatçı ölkə sırasına çıxarıb. Qafqazın "sabitlik adası" olan Vətənimizdə bu il reallaşacaq layihələr 2019-cu ildə əldə edilən uğurların, dövlət və xalq birliyinin sarsılmazlığının, inam və etibarın məhsuludur. Elə isə tanış olaq:**

- bu il uzunluğu 3500 kilometr olan "Cənub qaz dəhlizi" tam istismara veriləcək;
- Bakı qəsəbələrində yeni yolların çəkilişi xüsusi əhəmiyyət daşıyacaq;
- dövlət xətti ilə təxminən 40 minə yaxın iş yeri yaradılacaq;
- ən azı 1500 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin ediləcək;
- 7 min məcburi köçkün ailəsi üçün mənzillərin, evlərin verilməsi nəzərdə tutulur;
- bu il beş "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək;
- onlarla məktəb, tibb müəssisəsi tikiləcək, təmir ediləcək;
- iki Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur;
- 400-dən çox subartezian quyusunun qazılması təmin ediləcək;
- bu il min kilometr avtomobil yolunun çəkilişi nəzərdə tutulur;
- dövlət büdcəsindən qazlaşdırmaya 130 milyon manat vəsait nəzərdə tutulur;
- Mingəçevir İES-in qalan üç blokunda bərpa-tikinti işləri aparılacaq;
- "Azərenerji" bu il yeni böyük elektrik stansiyasının tikintisinə başlayacaq;
- bu il də dövlət xətti ilə 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılacaq;
- ən azı 10 min insan özünüməşğulluq proqramına cəlb olunacaq;
- güzəştli şərtlərlə 200 milyon manata yaxın kreditlər veriləcək;
- Gəncə-Gürcüstan sərhədi dəmir yolunun sürətinin artırılması nəzərdə tutulur;
- Bakı-Gəncə dəmir yolunun çəkilişi tamamilə başa çatıb;
- "Şimal-Cənub nəqliyyat dəhlizi"nin tərkib hissəsi olan Bakı-Yalama dəmir yolunun yenidən qurulması gündəlikdədir;
- Şahdağ dağ-xizək kurortuna dəmir yolu çəkilməsi gözlənilir;
- Ələt-Astara dəmir yolunun yenidən qurulması və yolun marşrutunun dəyişdirilməsi, sahildən kənarlaşdırılması üzərində iş aparılır;
- Ləki-Qəbələ dəmir yolunun fəaliyyətə başlaması nəzərdə tutulur.
- Bakıətrafı, Bakı qəsəbələrinə gedən dəmir yolunun davam etdirilməsi nəzərdə tutulur.





# MONİTORİNQ KEÇİRİLİB

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsi Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayon Polis şöbələrində monitorinq keçiriblər.** Monitorinqin məqsədi saxlanma şəraiti, saxlanılanlara qarşı rəftarı öyrənmək olub.

Komitədən bildirilib ki, polis şöbələrində saxlanılan şəxslərin əksəriyyəti inzibati həbs cəzası alanlardır. Onların saxlanma şəraitindən heç bir şikayətləri olmayıb.

*Natiq Cavadov*

# YENƏ DƏ XİDMƏTDƏDİRLƏR

**Təqaüdə çıxdıqdan sonra da onlara ehtiyac olur. Bu gün veteran şuralarının üzvləri təmsil olunduqları polis orqanlarının fəaliyyətində, ictimai həyatında fəal mövqe tutur, həm də onlara bilik və təcrübələri ilə dayaq olur, ümumi işə, vəzifələrin icrasına öz töhfələrini verirlər.**

Cinayət faktlarının açılmasında, axtarışda olanların tapılmasında onların da əməyi var. Bundan başqa, həm də yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın gücləndirilməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə polis əməkdaşları ilə birgə vətəndaşlarla görüşlər keçirir, hüquqi mövzularda maarifləndirmə işləri aparır, gənc nəslin sağlam ruhda yetişmələri üçün böyük səy göstərirlər.

Suraxanı RPİ-nin Veteranlar Şurasının üzvləri də ərazi polis orqanlarının şəxsi heyəti ilə sıx təmasda olur, gənc əməkdaşlarla mütəmadi görüşür, onlara öz məsləhətlərini və tövsiyələrini verirlər. Şuranın sədri, istefada olan polis mayoru Telman Məmmədov bildirdi ki, uğurların qazanılmasında elmi-texniki tərəqqinin ən son nailiyyətlərindən geniş istifadə edilməsi, profilaktiki işin səmərəsinin xeyli artırılması ilə yanaşı, polis-vətəndaş münasibətlərinin daha da dərinləşdirilməsi istiqamətində görülmüş işlərin cinayətkarlıqla mübarizədə rolu böyükdür.

2019-cu ildə polis veteranlarının bilavasitə yaxından iştirakı ilə 294 cinayətin üstü açılıb. Bu da işin həmsi deyil. Ötən dövr ərzində veteranlar dəfələrlə respublikanın müxtəlif təhsil müəssisələrində (orta məktəblərdə, liseylərdə, kolleclərdə və s.), həmçinin ayrı-ayrı kollektivlərdə çıxış edib, onları zərərli vərdişlərdən çəkinməyə çağırıblar.

Həmsöhbətim qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində aparılan tədbirlərin məqsədyönlü şəkildə bu il də davam etdiriləcəyini dedi.

*Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı*

# BİR KƏNDİMİZ VARDI...

**Müharibə alovu Qarabağı bürümüşdü. Erməni-rus hərbi birləşmələri ilə yeni yaradılmış, qeyri-peşəkarların rəhbərlik etdiyi Milli Ordunun təcrübəsiz əsgərləri üçün savaşmaq çətin idi. Dinc sakinlərin ah-naləsi, tüstüsü göylərə qalxan yaşayış məntəqələrinin harayı iqtidar-müxalifət davasının getdiyi paytaxtda eşidilmirdi.**



Qarabağın bir parçası olan Qaradağlı düşmən hədəfinə çevrilsə də, qorxmaz oğulları tərəfindən qorunur, müdafiə olunurdu. Kənd ömrünün ən çətin günlərini yaşayırdı. Yaşayış evləri, müxtəlif inzibati binalar od tutub yanır, günahsız insanlar qətlə yetirilir, mal-dövlət talan edilib aparılırdı. Düşmənlər bu gözəl, əhəmiyyətli mövqeyi ələ keçirmək istəyirdi. Çünki Qaradağlı Xocavənd ilə Xankəndi arasındakı yolu kəsmiş, onların bu yolda hərəkətinə mane olurdu. Xocavəndin quldur dəstələri tərəfindən işğal olunmasından sonra kənddə vəziyyət daha da gərginləşdi.

Xocalı faciəsinə gedən yolun son kilometrliyində duran düşmən əvvəl Qaradağlı qətliamını törətdi. Fevralın 16-17-də qədim türk məskəni olan Qaradağlı kəndi dörd tərəfdən düşmən hücumuna məruz qaldı. Vətənin müdafiəsinə qalxan oğul və qızlarımız nə qədər müqavimət göstərsələr də, mühasirə həlqəsi getdikcə daralırdı. Onlarla igid oğlumuz qətlə yetirildi, əsir götürülənlərin əksəriyyəti Xankəndinə gedən yoldaca güllələndi. Min cür əzab-əziyyət, işgəncə verilən uşaqlar, qadınlar və qocalar vəhşicəsinə öldürüldülər. Yaralılara aman verilmədi. Vəhşiləşmiş daşnak tör-töküntüləri böyük bir elin varlığına son qoymaqla Xocalıya gedən yolu tamamilə açdı və yeni hücumlara hazırlaşmağa başladılar. 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdıldı. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşdü.

*Ruhiyyə Əliyeva, polis baş leytenantı*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MÜSABİQƏ ELAN EDİR

## 2020/2021-ci TƏDRİS İLİ ÜÇÜN DİN-in POLİS AKADEMİYASINDA "HÜQUQŞÜNASLIQ" VƏ "İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ" İXTİSASLARI ÜZRƏ ƏYANİ TƏHSİLƏ KURSANTLARIN QƏBULU BAŞLAYIB

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə 175 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

"İnformasiya təhlükəsizliyi" ixtisası üzrə əyani təhsilə isə 25 kursantın qəbulu üçün müsabiqə elan edilir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2020-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından oğlanlar iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2020-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2020-ci il yanvar ayının 27-dən mart ayının 1-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10-dan 17-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcək.

Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-95-05.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə, qaçış 100 metr məsafəyə – 17 saniyə və 1000 metr məsafəyə-5 dəqiqə) verməli, Nazirliyin seçmə komissiyasından, habelə Tibb İdarəsinin Xüsusi həkim komissiyasından müayinədən keçməlidirlər.

Fiziki hazırlıq normativlərindən birini yerinə yetirə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyasının iş vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcək.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 14 sentyabr 2020-ci il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" və "050615 - informasiya təhlükəsizliyi" ixtisasları üzrə "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə, onlar daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.**

**Son zamanlar daxili işlər orqanları əməkdaşları tərəfindən keçirilən tədbirlərdə qadın narkotacirlərin tutulması çox ağrılıdır. Yaranışla yaşıd olan varlığın bizi sonu görünməz bəlalarla üzbəüz qoyan, millətin genefondunu məhvə sürükləyən əməllərlə pul qazanması Ana adının böyüklüyünə kölgə salır. Bəzilərinin ortada dəlil və sübutlar olduğu halda "humanist yanaşma" nümayiş etdirərək onların cəzadan azad edilmələri üçün sosial şəbəkələr üzərindən "vəkillik" etmələri qanunun geriyə addım atmasına heç bir hüquqi əsas vermir.**

O da anadır. Bəs nə üçün əli "ölümlə" oynayır. Nə üçün qəlbindəki şəfqətin, mərhəmətin yerini övladı yaşındakıları vaxtsız ölümlərə sürükləyən pis əməllər tutub? Suala cavab tapmaq elə də çətin deyil. Çünki o, nə vaxtsa uçurumun kənarında buraxılacağını gözləri önünə gətirməyib. Bir sözlə, bu "ana"lar maariflənməyib, maarifləndirilməyiblər və kimsə onlara deməyib ki, narkomaniya "səssiz ölümdür". O elə bir anda gəlib ən yaxınımızı əlimizdən alır, özümüzü dəmir barmaqlıqlar arxasına salır ki, "Sonrakı peşmançılıq fayda verməz"in faydasını onda anlalar" qırılmasının qarşısını almağa yönəlsə də təəssüflər olsun ki, son iki əsrdə insanlığın məhvinə yol açan real təhlükənin-narkomaniyanın dünyanı hörümçək toru kimi sarmasının qarşısını ala bilmirik.



# UÇURUMA APARANLAR

## ONLAR LAYLA DEMİR...

yırıq. Sonra isə gec olur…

Bəli, qanunsuz əməl sahibi milliyyətindən, vəzifəsindən, cinsindən asılı olmayaraq qanun qarşısına mütləq çıxarılır və o, etdiyinə görə cəzasını alır. Ancaq qadınlar cəzalandırılanda (axı onlar zərifdirlər) qəlbimizdən qırılıb düşən tellərin yeri bizi göyüm-göyüm göynədir. Zərərli vərdişləri peşəyə çevirən, narkotiklərin satışı ilə məşğul olan və sonda layiqli cəzasına çatan qadınlarla, zəriflərlə, dilə gətirilməsi belə çətin olsa da gələcəyin bir əsgərini, bir alimini, bir Anasını da itirmiş oluruq.

Təcrübə göstərir ki, bəzi işbazlar diqqət çəkməmək üçün qadınları şirnikləndirib öz torlarına salırlar. Onlar da "Nazlı"lar (Sabunçuda tutulan narkotacir qadının ləqəbi), "İkoş"lar (Abşeronda tutulan narkotacir qadının ləqəbi) kimi narkotik vasitələri gənclərə satmaqla potensial cinayətkara, manqurta çevirir və anlamırlar ki, zombiləşmiş təfəkkürlə gələcəyi düşünmək mümkün deyil.

XXI əsrdə daha sağlam və daha kamil insan modeli yaratmaq uğrunda mübarizə cəmiyyətdə mənəvi "bağ-

Yeri gəlmişkən, ***ötən il Azərbaycanda qeyri-leqal dövriyyədən bütövlükdə 1 ton 231 kiloqram narkotik vasitə çıxarılıb. Qeyri-qanuni kultivasiya edilən 127 tona yaxın çətənə və xaşxaş kolu aşkarlanaraq məhv edilib.***

Bəla ilə mübarizə üçün təklif cəmiyyətdən, sabahımızı düşünən insanlardan gəlsə də onunla mübarizədə daha kəskin qətiyyət nümayiş etdirən hüquq mühafizə orqanları, eləcə də Azərbaycan Polisidir. Keçirilən sorğular zamanı vətəndaşlar etiraf edirlər ki, polis, valideyn və məktəb həmrəyliyi millətin gələcəyini özünə hədəf seçənlərdən qoruyan əsas gücdür. Real mənzərə budur ki, övladına tərbiyə, təhsil verə bilməyən, onların taleyinə biganə yanaşan valideynlərin borcunu da polis yerinə yetirir. O, maarifləndirir, çəkindirir, doğru yolu göstərir, Vətəni, xalqı sevməyi öyrədir.

Əgər cəmiyyəti, xüsusən də gəncləri narkomaniyadan və digər zərərli vərdişlərdən qorumaq istəyiriksə, valideynlərin, anaların maariflənməsini diqqətdə saxlamalıyıq.

***Hafiz Təmirov,***
***polis polkovnik-leytenantı***

**Xəzər RPİ 3-cü Polis Bölməsinə Binə qəsəbəsindəki evlərin birindən 5000 manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə müraciət daxil olub.** Dərhal bölmə rəisi, polis mayoru Rahid Nağıyev işi nəzarətə götürüb və təcrübəli əməkdaşlardan-bölmənin rəis müavini, polis mayoru Seymur Qarayev, baş əməliyyat müvəkkili, polis mayoru Gülağa Həsənov və sahə inspektoru, polis mayoru Xəqani Behbudovdan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Təxirəsalınmaz tədbirlər nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Həsən Hüseynov və Əli Əmirxanov saxlanılıblar.




Müəyyən edilib ki, zərərvəllər məhkum olunmuş İ.Zamanov yaxalanıb. Müəyyən edilib ki, o həm də ayrı-ayrı vaxtlarda qəsəbədəki daha altı evdən müxtəlif əşyalar oğurlayıb və bazarda satıb. Əvvəlcə əməllərini etiraf etmək istəməyən İlqar ona təqdim edilən tutarlı dəlil-sübutlar qarşısında aciz qalıb.

******

**Daha bir uğurlu əməliyyat Qaradağ RPİ 10-cu Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilib. Rayonun Lökbatan qəsəbəsində oğurluq hadisəsinin üstü "isti" izlərlə açılıb.**

Belə ki, daxil olmuş məlumat əsasında bölmə rəisi, polis mayoru Nizami Novruzov tərəfindən əməliyyat-axtarış

# OĞRULAR YAXALANDI...

çəkmiş Əlinin öz qohumudur. Əli qohumunun evdə olmadığını fürsət bilib, dostu Həsənlə plan qurublar. Sonra Həsən özlərini ələ verməmək üçün oğurladıqları qızılları qəsəbədəki müxtəlif mağazalarda satıb. Ancaq bölmə əməkdaşlarının peşəkarlığı və sayıqlığı sayəsində yaxalanan ələ veriblər. Onları bu əməllərə sövq edən isə narkotik aludəçiliyi olub.

******

Narkotik vasitələrin digər qurbanı İlqar Zamanov olub. O, Binə qəsəbəsindəki evlərin birindən televizor oğurlayıb.

Daxil olmuş məlumata əsasən, iş Xəzər RPİ 3-cü Polis Bölməsinin əməliyyat müvəkkili, polis kapitanı Kənan Abdullayevə və sahə inspektoru, polis kapitanı Heydər Bağırova tapşırılıb. Əməkdaşların operativliyi və çevikliyi sayəsində qısa zaman kəsiyində anoloji əməllərə görə əvqrupu yaradılıb. Baş əməliyyat müvəkkili, polis leytenantı İnqilab Ağayev və əməliyyat müvəkkili, polis kapitanı İbrahim Dadaşov dərhal hərəkətə keçiblər. Qanun qoruyucularının çevikliyi sayəsində oğurluqda şübhəli bilinən, əvvəllər anoloji əməllərə görə məhkum olunmuş Elnur Hüseynov saxlanılıb. Araşdırmalar zamanı maraqlı faktlar ortaya çıxıb. Bəlli olub ki, üç həyətyanı sahədə quraşdırılmış su sayğaclarını oğurlayan Elnur, rayon ərazisində yerləşən iki təşkilatdan və bir neçə evdən müxtəlif vaxtlarda daha 6 oğurluq əməli törədərək vətəndaşlara maddi ziyan vurub. O, sayğacları satarkən tutulub. Bölməyə gətirilən E.Hüseynov borcu olduğundan bu işə əl atdığını deyib, törətdiyi digər əməlləri də bircə-bircə danışıb.

***Teymur Əlizadə,***
***polis kapitanı***

# YOLDA QALAN OLMADI

**Respublikanın bir çox bölgələrində olduğu kimi Astaraya da güclü qar yağıb.** Bu cür hava şəraitində xidmət aparan Astara RPŞ Dövlət Yol Polisi Bölməsinin əməkdaşları yolda qalan sürücülərin və buz bağlamış yolları keçməkdə çətinlik çəkən piyadaların köməyinə çatıblar. Onlar yolların təmizlənməsində, qum və duz





səpilməsində də fəallıq nümayiş etdirib, gün ərzində hərəkət axınını tənzimləyərək yolayrıclarında nəqliyyat sıxlığının qarşısını alıblar. Polislər qış təkərləri və texniki cəhətdən hava şəraitinə hazır olmayan nəqliyyat vasitələrinin sahiblərinə qarlı-buzlu havada yola çıxmamağı tövsiyə ediblər.

***Məhəmməd Rzayev,***
***polis baş leytenantı***

**Narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəxslərə qarşı Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən növbəti əməliyyat həyata keçirilib.** Belə ki, paytaxtın Nizami rayonunda bir nəfərin narkotik vasitələrin satışı ilə məşğul olması barədə Baş İdarəyə əməliyyat məlumatı daxil olub. Keçirilən əməliyyat tədbiri zamanı həmin-şəxs Bakı şəhər sakini Daşqın Axundzadə saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 25,870 qram narkotik vasitə olan marixuana aşkar olunub. Əməliyyat tədbirlərinin davamı olaraq D.Axundzadənin yaşadığı evdən əlavə 4 kiloqram 575,165 qram heroin, 2 kiloqram 140 qram güclü təsiredici xassəyə malik psixotrop maddə olan metamfetamin,

# "AĞ ÖLÜM" SATANLAR

ümumi çəkisi 27 qram olan 180 ədəd satışı qadağan olunan psixotrop tərkibli "Preqabalin" həbləri və 1 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb.

Araşdırma zamanı müəyyən edilib ki, o, narkotik vasitələri və psixotrop maddələri şəxsiyyəti istintaqa məlum olmayan İran vətəndaşından alıb və satışını həyata keçirib.

*****

Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının Qaradağ rayonunda həyata keçirdikləri növbəti tədbir zamanı isə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilinən Masallı rayon sakini Fərhad Hüseynov saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 1 kiloqram 45 qram heroin aşkar olunaraq götürülüb.

***Anar Qafarov,***
***polis baş leytenantı***

# ELAN

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, nazirliyin müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcək.

İştirak etmək istəyən şəxslər 2020-ci ilin yanvar ayının 21-dən fevral ayının 21-dək **mia.gov.az./?/az/content/29779/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45; (012)-590-92-37; (012)-590-97-52.**

***Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi***

# ŞƏHİDLƏR UNUDULMUR



Torpaqlarımız uğrunda canını fəda edən, şəhidlik zirvəsinə ucalan, sağlamlığını itirən, əlil olan igid oğullarımızı, qəhrəman polislərimizi tanımaq və tanıtmaq hər birimizin borcudur.

Sıramıza qoşulan gənclər unutmasınlar ki, üç rəngli bayrağımızın daim zirvədə dalğalanması üçün onlar:

***Bəlkə də borcundan çıxmadım, Vətən,***
***Ömür bahar deyil, bir də qayıtsın.***
***Ölsəm də qoynunda qoy ölüm ki, mən,***
***Çürüyüm, bir ovuc torpağın artsın,*** -

deyərək ölümün gözünə dik baxıblar.

Belə igid oğullardan biri, Seyidov İlkin Mirnazir oğlu 1969-cu ilin sentyabr ayının 23-də Şərur rayonunun İbadulla kəndində dünyaya gəlib. Naxçıvan şəhərindəki 5 nömrəli orta məktəbi bitirdikdən sonra əsgəri borcunu yerinə yetirmək üçün ordu sıralarına çağrılıb. Hərbi xidməti başa vurub Naxçıvan MR DİN Xüsusi Təyinatlı Polis Dəstəsinə xidmətə qəbul olunub. Şəhid polisimiz dəfələrlə Naxçıvan MR Ermənistanla həmsərhəd bölgələrində gedən döyüşlərdə iştirak edib. O, vətənsevərliyi, mərdliyi və qorxmazlığı ilə döyüş yoldaşlarına nümunə olub, ayıq-sayıqlığı ilə fərqlənib.

İ.Seyidov 1992-ci ilin may ayının 19-da "Ucu biz" dağının ermənilərdən təmizlənməsi əməliyyatı zamanı qəhrəmancasına həlak olub. Məzarı Naxçıvan şəhər Şəhidlər Xiyabanındadır.

***Vüsal Məmmədov,***
***polis baş serjantı***

# ALOVLA SAVAŞA ATILAN HƏM DƏ POLİSLƏR İDİ







Fevralın 7-də səhər saatlarında Qubanın ucqar dağ kəndlərindən olan Qarxun kəndi ərazisində yerləşən bir neçə fərdi yaşayış evində yanğın baş verib. Dərhal Quba Rayon Polis Şöbəsinin əməkdaşları rayon mərkəzindən təxminən 75 km aralıda yerləşən kəndə yollanıblar.

Asayiş keşikçiləri yanğının baş



verdiyi ərazidə təhlükəsizlik tədbirləri həyata keçiriblər. Alovun qarşısının alınması və digər yaşayış evlərinə keçməməsi üçün onlar FHN əməkdaşlarına və kənd sakinlərinə köməklik göstəriblər.

Hadisə nəticəsində xəsarət alan olmayıb, yanğının baş vermə səbəbləri araşdırılır.

***Nizam Həmidov,***
***polis baş leytenantı***

# NİYYƏTİ BAŞ TUTMADI

**Axşam saatlarında işdən bağa gələn Zakir Göyçəyev evində oğurluq hadisəsinin baş verdiyini görüb.**



"102 Xidməti-Zəng Mərkəzi"nə yığaraq kömək istəyib. Sumqayıt ŞPİ 1-ci Polis Bölməsinə müraciət daxil olan kimi bölmə rəisi, polis polkovnik-leytenantı Azər Əhmədov işi nəzarətə götürüb və təcrübəli əməkdaşlardan-bölmənin rəis müavini, polis polkovnik-leytenantı Qabil Rzayev, əməliyyat müvəkkili, polis baş leytenantı Anar Abbaslı və sahə rəisi, polis mayoru Mircəlal Abbasovdan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Polislər oğurluğu törətməkdə şübhəli bilinən, əvvəllər də anoloji əməllərə görə məhkum olunmuş Elçin Baxışovu saxlayıblar. Oğurluğu özünə peşə seçərək sahibsiz bağları gözaltı edən Elçinin niyyəti bu dəfə baş tutmayıb. O, gecə saatlarında, elə "iş başında" asayiş keşikçiləri tərəfindən yaxalanıb. Aparılan zəruri istintaq tədbirləri nəticəsində müəyyən edilib ki, Elçin şəhər ərazisində daha 5 evdən elektrik naqili, samovar, su qızdırıcısı, təmir-tikinti alətləri, soyuducu mühərriki, mis boru və məişət əşyaları oğurlayıb. Onu bu əməllərə sövq edən isə narkotik aludəçiliyi olub.

***T.Əlizadə***

# ÜMİDLƏRİ DOĞRULDUR

**Gənclər cəmiyyətin hərəkətverici qüvvəsidir. Bu gün Azərbaycan gəncliyi dövlətimizin ali diqqət və qayğısı ilə əhatə olunub. Məhz bunun nəticəsidir ki, onların səsi dünyanın ən böyük bilik və idman arenalarından gəlir. Elə Vətən sərhədlərini də qorumağı gənclərimizə həvalə etmişik.**

Hər dəfə bölgələrdə ezamiyyətdə olduğumuz zaman həmkarlarımızın ictimai asayişin qorunmasında və cinayətkarlıqla mübarizədə əldə etdiyi nəticələri işıqlandırmaqla yanaşı, xidmətdə fərqlənən gənc əməkdaşlarla da maraqlanırıq. Daşkəsənə bu dəfəki səfərim zamanı da belə oldu.

Rayon Polis Şöbəsinin rəisi, **polis polkovnik-leytenantı Azay Ağayevə** xidmətdə fərqlənən əməkdaşlardan bəzilərilə görüşmək istədiyimi



deyəndə: "Bizdə belələri çoxdur, hamısını çağırım?",-dedi. Sonra əlavə etdi: "Polis baş leytenantı Nicat Cəfərli ilə tanış olsanız yaxşı olar".

Növbətçi hissəyə zəng vurub onu rəisin qəbul otağına çağırdılar...

Elə ilk tanışlıqdan gülərüz, səliqə-sahmanlı, gündəlik geyim formasına ciddi əməl edən bu polis zabiti diqqətimi çəkdi. Rəisdən icazə alıb söhbətimizə onun xidməti otağında davam etdik.

Öyrəndim ki, Gəncədə dünyaya gəlib. 2010-cu ildə məktəbi bitirdikdən sonra DİN-in Polis Akademiyasına daxil olub. Nicat xidmətə Daşkəsən RPŞ-nin Cinayət Axtarış Bölməsində əməliyyat müvəkkili kimi başlayıb. Təxminən bir il sonra həmin Şöbənin İstintaq Qrupunda xidmətini davam etdirib. Verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirən, daima öz üzərində çalışan gənc həmkarımızın xidməti diqqətdən kənarda qalmayıb. O, 2019-cu ilin dekabr ayından İQ-nun baş müstəntiqi vəzifəsinə irəli çəkilib.

Polis adının və andının məsuliyyətini dərk edərək, etimadı, inamı doğrultmaq üçün yorulmadan əzmlə çalışır. Bilir ki, zəhmətlə, alın təri ilə qazandığı hər bir uğur ömür yolunun mayakına çevriləcək.

***Çingiz Şıxverdiyev,***
***polis polkovnik-leytenantı***

# BU DA MARAQLIDIR

**Neçə on illiklərdir ki, dilimizdə "xuliqan" sözü işlədilir.**

Avara, boş, səfil bir həyat keçirən, addımbaşı qanunları, asayişi pozanları – "xuliqan" adlandırırlar. Bəs, bu sözün necə yarandığını bilirsiniz?

1898-ci ildən London polisinin hazırladığı məruzələrdə artıq "xuliqan" kəlməsindən istifadə edilməyə başlanmışdı. Bəzi iddialara görə, həmin dövrdə qanunları pozmaqda ad çıxarmış, irlandiyalı Xuliqan (ingiliscə "Hooligan") ailəsi haqqında məhnı vardı və çox güman ki, bu söz burdan götürülmüşdür.

Lakin Klarens Rukun 1899-cu ildə nəşr edilmiş "Xuliqan gecələri" adlı kitabında bu kəlmənin Londonda yaşamış mühafizəçi və oğru Patrik Xuliqanın adından götürüldüyü qeyd olunur. Öz ailəsi və kiçik dəstəsilə birlikdə tez – tez cinayətlər törətməklə, qarətlər etməklə ad çıxarmış Patrik Xuliqan hətta polis işçisini qətlə yetirmiş və ömürlük həbs cəzası almışdır.

Bir sözlə, yüz il bundan əvvəl yaşamış Patrik Xuliqan adını "tarix"ə salmışdır.

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

# Fevral ayının 5-dən 11-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 127 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 52 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 136, o cümlədən borclu şəxs qismində axtarışda olan 82 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 9 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 9 nəfər ölmüş, 3 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 57 fakt müəyyən edilmişdir.




ABŞ-da Paterson şəhər Polis İdarəsinə türk əsilli Mayk Baykora rəis təyin edilib. O, xüsusi mərasimdə and içərək vəzifəsinin icrasına başlayıb. Andiçmə mərasiminin türk dilində dua ilə başlaması və Baykoranın əlini müqəddəs Quran kitabına basması diqqətdən yayınmayıb.

Türkiyənin Əskişəhər şəhərində doğulan Mayk Baykora kiçik yaşlarında ailəsi ilə Patersona köçüb və orada böyüyüb. O, 1988-ci ildən polis təşkilatında çalışır.

Qeyd edək ki, Paterson türklərin ən çox yaşadığı şəhərdir.

*****

Mumbay şəhər polisi avtomobillərin siqnal səslərinin azaldılması və şəhərdə səs kirliliyinin aradan qaldırılması üçün sürücüləri məcburi tərbiyəyə başlayıb. Yol polisi işıqforlara səs gücünü ölçən cihazlar bərkidib. Səs gücü 85 desibeli keçdiyi anda işıqforun qırmızı işığı yenidən yanır və bu səs tamam kəsilənə qədər davam edir. Beləcə sürücülər qırmızı işıqda çox gözləməmək üçün məcbur olub səs siqnalları vermirlər.

*****

Rusiyada vətəndaşların etibarından sui-istifadə edərək, onlara qarşı dələduzluq edən və külli miqdarda ziyan vuran cinayətkar qrup zərərsizləşdirilib. Dəstə üzvləri 2017-ci ildən bu günə kimi Moskva, Belqorod, Orla və Kursk ərazilərində 300-dən çox avtomobil sahibini aldadıblar. Onlar bir neçə hüquqi şəxsi də qeydiyyata alaraq avtomobilləri satmaq üçün avtosalon da icarəyə götürüblər.

Şübhəlilər vətəndaşlardan avtomobilləri və alqı-satqı üçün lazım olan sənədləri alaraq, qısa müddət ərzində sərfəli qiymətə satılacağına vəd veriblər.

Bildirilib ki, cinayətkarların vətəndaşlara vurduğu zərərin miqdarı 100 milyon rubldur. Hazırda qrup üzvlərinin altısı saxlanılıb, daha iki nəfərin axtarışları isə davam etdirilir.

*****

Avstraliyanın Sidney şəhərində yaşanan maraqlı bir hadisə ölkə gündəmini zəbt edib. Oğurluqda ittiham olunaraq axtarışa verilən 23 yaşlı qız polisin "Facebook" səhifəsində paylaşdığı şəklini bəyənməyib şərh yazanlara: "Hər gün belə görünmürəm, səhvən çəkilən şəkildir",-deyə cavab yazıb. Daha sonra polisin: "Biz səni tapmadan əvvəl təslim olsan, yaxşı olar",-yazısına isə səssiz qalıb.

O, bir neçə saat sonra öz səhifəsində yeni foto paylaşaraq, "Əsl görünüşüm belədir", - sözlərini qeyd edib. Onun bu hərəkəti bəzilərini qıcıqlandırsa da, bəzilərinin gülüşünə səbəb olub.

***C.Natiq***

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

BURAXILIŞA MƏSUL:
E.ZAHİDOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.954

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik